İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ
Bakı, AZ1122, Zərdabi küç., 96
431 12 72 430 52 85
office@isim.az www.isim.az

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
İctimai Səhiyyə və İslahatlar Mərkəzi

# İLLİK HESABAT 2018

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

# Mündəricat


3
**Giriş**
*Qəhrəman Haqverdiyev, İSİM-in direktoru*

4
**EBMG**
*Sübutlara Əsaslanan Tibbi Təlimatlar*

5
**İctimai Səhiyyə və İslahatlar Mərkəzi**
*Aris Rüstəmov, Kadrlar şöbəsinin müdiri*

6
**Dövlət proqramlarının icrası**
*Rauf Məmmədov, direktor müavini*

8
**Təcrübə mübadiləsi, əməkdaşlıq**
*Rahib Məmmədov, direktor müavini*

9
**Prioritet istiqamətlər və layihələr**
*Səbinə Babazadə, Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri*

10
**Azərbaycanda tütünlə mübarizə və İSİM**
*Tofiq Musayev, Əhalinin sağlamlığı şöbəsinin müdiri*

12
**Metodik vəsaitlər və tövsiyələr**
*Şəhla İsmayılova, Tibbi keyfiyyət standartları şöbəsinin müdiri*

13
**İSİM-də aparılan monitorinq və təhlil**
*İnara Makayeva, Monitorinq və təhlil şöbəsinin müdir müavini*

14
**Maarifləndirmə, təbliğat və təşviqat işləri**
*Laura Quliyeva, Səhiyyə kommunikasiyası və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*

16
**Profilaktik tədbirlər**
*Şəhla Mirzəzadə, Səhiyyə siyasəti və islahatlar şöbəsinin müdiri*

18
**Əhali arasında sorğuların aparılması və qiymətləndirilməsi**
*Lütfi Qafarov, İlkin səhiyyənin təşkili şöbəsinin müdiri*

19
**Təlimlər, seminarlar, konfranslar**
*Sevda Məmmədova, Təlim-resurs şöbəsinin müdir əvəzi*

20
**Müasir texnologiyaların tətbiqi**
*Samir Mehdiyev, Telekommunikasiya şöbəsinin müdiri*

22
**İSİM-2018**

23
**İSİM-2019**

**QƏHRƏMAN HAQVERDİYEV**

*Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru*




**Hörmətli dostlar,**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən 2018-ci il ərzində görülən işlərə dair məlumatları sizə təqdim edirik.

Hesabat dövrünün nəticələrindən danışarkən ilk növbədə onu vurğulamaq lazımdır ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin əsas fəaliyyət istiqamətlərinə xüsusi diqqəti İSİM-in qarşısına qoyulan məqsəd və öhdəlikləri layiqli nəticələrlə yerinə yetirməyə imkan yaratdı.

2018-ci il İSİM üçün müxtəlif səbəblərə görə mürəkkəb, eyni zamanda maraqlı bir il oldu. Hesabat ilinin maraqlı və dolğun olmasına səbəb İSİM-in bir neçə yeni istiqamətli fəaliyyətləri həyata keçirməsi ilə bağlıdır. Ötən il www.embg.az klinik protokollar portalı yaradıldı, tibbi-maarifləndirici mobil əlavələr hazırlandı. Sağlam həyat tərzini təbliğ edən animasiya filmləri təqdim olundu, şəkərli diabet, hemofiliya xəstəlikləri üzrə müalicə həkimlərinin bilik və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində müxtəlif tədbirlər keçirildi. STEPS, HBSC və WASH tədqiqatlarının yekun hesabatları aparıldı.

Səhiyyə naziri cənab Oqtay Şirəliyevin əmri ilə 2006-cı ildə yaradılan İSİM artıq 11 ildən çoxdur fəaliyyət göstərir. Bu müddət ərzində ictimai səhiyyə üzrə kadrlar hazırlandı, əhali, o cümlədən tibb müəssisələri ictimai səhiyyə barəsində informasiyalaşdırıldı.

İSİM səhiyyə siyasətinin inkişafına dəstək verərək, səhiyyə sahəsində həyata keçirilən strategiya və tədbirlər barədə, həmçinin, xəstəliklərlə mübarizə, profilaktika ilə bağlı informasiyanın yayılması və toplanması ilə məşğuldur. Mən əməkdaşlarımıza respublikamızın əhalisi qarşısında çox məsuliyyətli bir işlə məşğul olduğumuzu hər zaman vurğulayıram. Əgər həkim gün ərzində bir neçə xəstəni müalicə edirsə, bizim Mərkəzin fəaliyyəti yüzlərlə və minlərlə insanın sağlamlığının qorunmasına kömək etmək üçün istiqamətlənib. Ümid edirəm ki, illik Hesabatımız görülən işləri tam əks etdirir və bizə dövlət orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları kimi etibarlı tərəfdaşlarla birgə əməkdaşlığa köməklik göstərəcək. Təsadüfi deyil ki, əhalinin sağlamlığının qorunmasına təsir edən əsas faktorlardan 10%-i tibbin üzərinə düşürsə, qalan 50%-i həyat tərzi, 20%-i irsi amillər, 20%-i isə ətraf-mühitin göstərdiyi təsirlərdir. Bu baxımdan, ictimai səhiyyənin əhalinin və ümumilikdə ictimaiyyətin sağlamlığına verdiyi töhfə çox mühümdür.

Bu, İSİM-in geniş ictimaiyyətə təqdim olunan ilk illik tam Hesabatıdır. Əminəm ki, təqdim etdiyimiz hər belə hesabatla bizə həvalə olunan vəzifələrin səmərəli icrası və yerinə yetirilməsi işi genişlənəcək və İSİM-in fəaliyyətinin effektivliyi və müvəffəqiyyəti uğurlu nəticələrdə özünü göstərəcək.

# Sübutlara Əsaslanan Tibbi Təlimatlar (Evidence-Based Medicine Guidelines) internet portalı

EBMG.AZ
Evidence-Based Medicine Guidelines Azerbaijan

## 24 dekabr 2018-ci ildə İSİM-də www.ebmg.az portalının açılışı oldu

Dünyanın tanınmış tibb mütəxəssisləri tərəfindən yaradılan və tibbi sübutlara əsaslanan bu informasiya resursundan Avropa və keçmiş SSRİ-nin 10-dan çox ölkəsinin həkimləri istifadə edirlər və artıq onların sırasına Azərbaycan həkimləri də qoşulurlar.







Bu protokollarla yanaşı, portalda Azərbaycan həkimləri üçün sübutlara əsaslanan Cochrane Library, MedLine, PubMed beynəlxalq məlumat bazalarından 4000-dən çox elmi məqalə, o cümlədən müxtəlif patologiyalar zamanı ürək və ağciyərdə eşidilən küylərin audioyazılmaları, dermatoloji və göz xəstəliklərinin şəkilləri və təsviri Azərbaycan istifadəçilərinə təqdim olunur.

***www.ebmg.az***
***istifadəçisi ol, tibbi qərarların dəstəklənməsi sisteminə qoşul!***

- Kliniki protokollar – 970
- Sübutlu məlumatların xülasələri – 4246
- Şəkillər – 1500
- Audio nümunələr – 83
- Videolar – 83
- Proqramlar - 14

**ARİS RÜSTƏMOV**

*Kadrlar şöbəsinin müdiri*



*“İctimai Səhiyyə və İslahatlar Mərkəzi öz kadr ehtiyatları ilə unikal bir səhiyyə təşkilatıdır”.*

# İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ



İctimai səhiyyə dedikdə profilaktik, klinik xidmətlər, tibb müəssisələrinin xidmətlərinə nəzarətlə yanaşı, milli səhiyyə sisteminin fəaliyyətinə aid olan – sağlamlığa birbaşa və ya dolayı yollarla təsir edən amillərə nəzarət, ətraf mühitin mühafizəsi məsələləri, sağlam həyat tərzinin təbliği və dəstəklənməsi, sağlamlıqla bağlı problemlərin aradan qaldırılması üçün strategiyaların, səhiyyə proqramlarının hazırlanması və s. kimi mütəşəkkil fəaliyyətlər nəzərdə tutulur.

**İctimai Səhiyyə və İslahatlar Mərkəzi** Azərbaycanda əhalinin sağlamlığının qorunması üzrə islahatların elmi əsaslandırılması, səhiyyə qanunvericiliyinin müasir tələblərə və aparılan islahatlara uyğunlaşdırılması, tibb işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, ilkin səhiyyə sahəsində islahatların aparılması və müasir texnologiyaların səhiyyədə tətbiqi üzrə təklifləri hazırlayır.





İSİM-də tibb işçiləri ilə yanaşı, digər ixtisaslı mütəxəssislərin, o cümlədən hüquqşünas, iqtisadçı, ekoloq, mühəndis, psixoloq, səhiyyə kommunikatoru, sosioloq və jurnalistlərin də fəaliyyət göstərməsi ictimai səhiyyə anlayışına müasir yanaşma ilə səsləşir. Belə çoxixtisaslı heyətin yaradılması, şübhəsiz, ictimai səhiyyə sahəsində layihələrin həyata keçirilməsi üçün əlverişli şərait yaradır.



**RAUF MƏMMƏDOV**

*Direktor müavini*

*“Azərbaycanda infeksion və qeyri-infeksion xəstəliklərlə mübarizə, profilaktika tədbirləri dövlətin sosial yönümlü siyasətinin prioritet istiqamətlərindən biridir”.*

## DÖVLƏT PROQRAMLARININ İCRASI

Səhiyyənin ayrı-ayrı sahələri üzrə qəbul edilmiş dövlət proqramları əhaliyə göstərilən tibbi xidmətin genişləndirilməsində və keyfiyyətinin artırılmasında, eyni zamanda xəstəliklərin profilaktikasında xüsusi rol oynayır. Hesabat ilində İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən səhiyyənin prioritet sahələrinə aid altı Dövlət Proqramı çərçivəsində işlər davam etdirilib:

- “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı”
- “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı”
- “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı”
- “Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”
- “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığına qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı”
- “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı”





**“Uşaqların sağlamlığı sahəsində inkişafın ölçülməsi” mövzusunda seminar**



“Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı”

Eyni zamanda, Nazirlər Kabinetinin səhiyyənin inkişafı və səhiyyə islahatları istiqamətində vacib əhəmiyyət kəsb edən doqquz Tədbirlər Proqramı üzrə Səhiyyə Nazirliyi tərəfindən İSİM-ə həvalə edilən fəaliyyətlər 2018-ci ildə yüksək məsuliyyətlə həyata keçirilib:

- "2016-2020-ci illər üçün İİV/QİÇS-lə mübarizə üzrə Tədbirlər Proqramı"
- "2016-2020-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı"
- "2016-2020-ci illər üçün şəkərli diabet xəstəliyi üzrə Tədbirlər Proqramı"
- "2016-2020-ci illər üçün xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı"
- "2016-2020-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı"
- "2016-2020-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"
- "2016-2020-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı"
- "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi üzrə Tədbirlər Proqramı"
- "2017-2021-ci illər üçün qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı"

Hesabat ilində həmçinin "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı" və "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı", "Qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya", "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədi ilə İSİM-in fəaliyyət istiqamətlərinə uyğun olan işlər görülüb.

**"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2014-2020-ci illər üzrə Strateji Planı"na** əsasən, sağlam həyat tərzinin təbliği, könüllü qan donorluğunun inkişafı, məişət zorakılığının qarşısının alınması və digər prioritet məsələlər ilə bağlı fəaliyyətlər Hesabat ilində davam etdirildi, geniş maarifləndirmə tədbirləri və kampaniyalar keçirildi.



## RAHİB MƏMMƏDOV

*Direktor müavini*

*“Səhiyyə sahəsində həyata keçirilən beynəlxalq layihələrdə İSİM əməkdaşlarının iştirakı onların təcrübələrinin artmasına kömək edir”.*

## TƏCRÜBƏ MÜBADİLƏSİ, ƏMƏKDAŞLIQ

Beynəxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqi məqsədi ilə İSİM əməkdaşlarının Hesabat ilində ölkə xaricində (Hindistan, Polşa, Türkiyə, Türkmənistan, Rusiya, Qazaxıstan, Özbəkistan, Sloveniya) təşkil olunmuş 12 layihədə iştirakı təmin olunub.







İSİM təşkilatlararası əməkdaşlığı gücləndirmək və müxtəlif qurumların ictimai səhiyyə sahəsindəki fəaliyyətini dəstəkləmək məqsədilə 2018-ci ildə 50-dən çox təşkilatla sıx əməkdaşlıq edib.

**Beynəlxalq təşkilat və qurumlarla əməkdaşlıq edən İSİM bir çox beynəlxalq qurumların üzvüdür:**

UNFPA · World Health Organization · The World Bank · unicef

- İtaliya Barometer Diabet Müşahidə Fondu
- İtaliya İctimai Səhiyyə İnsitutu
- GAVI Alyansı
- Dünya Bankı
- HBSC şəbəkəsi
- EUPHA şəbəkəsi
- Beynəlxalq Taiex, Twining layihələri
- Gürcüstanın OAK Fondu
- Başkent Universiteti
- BMJ
- BMT-nin ölkə agentlikləri (ÜST, UNICEF, UNFPA, USAID)

**SƏBİNƏ BABAZADƏ**

*Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri*



*“Dövlət proqramlarında qeyd olunan əsas istiqamətləri rəhbər tutaraq və Səhiyyə Nazirliyinin prioritetlərini nəzərə alaraq İSİM tərəfindən ictimai səhiyyə sahəsində zəruri tədbirlər, layihələr həyata keçirilir”.*

## PRİORİTET İSTİQAMƏTLƏR VƏ LAYİHƏLƏR

Ölkəmizdə STEPS sorğusu əhali arasında qeyri-infeksion xəstəliklərin risk amillərinin yayılmasını müəyyən etmək üçün keçirilir. İndiyədək bu sorğu ÜST tərəfindən ümumilikdə 105 ölkədə həyata keçirilib. Azərbaycanda bu istiqamətdə ilk araşdırma 2011-cı ildə aparılıb və 2017-ci ildə STEPS sorğusu İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən ÜST-nin dəstəyi ilə həyata keçirilib. Hesabat ilində sorğunun nəticələri təhlil edilərək analiz olunub, qiymətləndirilib və hesabat yazılıb.

Azərbaycan 45 üzv ölkədən ibarət olan “Məktəbli uşaqlar arasında sağlam vərdişlərin tədqiqi” beynəlxalq şəbəkəsinin (Health Behaviour in School-aged Children - HBSC) 2017-ci ilin iyun ayından etibarən tam hüquqlu üzvüdür. Hər dörd ildən bir keçirilən HBSC tədqiqatı ölkəmizdə Səhiyyə Nazirliyinin tapşırığı və Təhsil Nazirliyinin dəstəyi ilə 2017-ci ilin sentyabr-noyabr aylarında İSİM-in mütəxəssisləri tərəfindən aparılıb. Hesabat ilində HBSC şəbəkəsinin Varşava şəhərində baş tutan toplantısında Azərbaycan nümayəndəsi iştirak edib və hesabatın yazılmasına, nəticələrin təhlilinə dair müzakirələrə qatılıb.

İSİM 2017–ci ildən etibarən “Sağlamlığı təşviq edən məktəblər” (SHE) şəbəkəsinə üzv oldu. 2018-ci ildə pilot olaraq Bakı şəhərində yerləşən 177, 149, 110 və 5 nömrəli məktəblərdə başlanılıb. Sağlamlığı təşviq edən məktəbə çevrilmə prosesi 5 mərhələdən ibarətdir. Mərhələlər cari və tsiklik proses şəklində gedir. Belə ki, ilk mərhələlər başlanğıc və başlanğıc nöqtəsinin qiymətləndirilməsi və bu qiymətləndirmənin əsasında fəaliyyət planının tərtib olunmasıdır. Növbəti mərhələlər fəaliyyətə başlamaq, monitorinq və qiymətləndirmədən ibarətdir.



**TOFİQ MUSAYEV**

*Əhalinin sağlamlığı şöbəsinin müdiri*

*“Tütünçəkmə və digər zərərli vərdişlərə qarşı mübarizədə İSİM fəal iştirak edir, beynəlxalq, dövlət və qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti ilə əməkdaşlığı genişləndirir”.*

## AZƏRBAYCANDA TÜTÜNLƏ MÜBARİZƏ VƏ İSİM

Azərbaycanda tütünçəkmə və digər zərərli vərdişlərə qarşı məqsədyönlü mübarizə aparılır. Cənab Prezident tərəfindən imzalanmış “Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya”da tütünlə mübarizəyə aid müvafiq bənd ayrılıb və mütəmadi şəkildə icra olunur. Tütünlə mübarizə tədbirlərini özündə əks etdirən “Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2014-2020-ci illər üzrə Strateji Planı və onun Fəaliyyət Planı 2014-cü ildə Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunub və hazırda icra edilir.















Layihənin əsas məqsədi hökumət və vətəndaş cəmiyyəti ilə birgə əməkdaşlıq çərçivəsində Azərbaycanda yeni qəbul edilmiş "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunun səmərəli icrasını təmin etməkdir. Tütünçəkmənin qadağan olunduğu bir sıra yerlərdə qanunun müvafiq tələblərinə riayət olunma səviyyəsini qiymətləndirilmək məqsədi ilə İSİM tərəfindən layihə çərçivəsində 2018-ci ilin oktyabr-noyabr aylarında müşahidə tədqiqatı aparılıb.

Əhali və mütəxəssislər üçün nəzərdə tutulmuş tütünlə mübarizə portalı olan www.tobaccocontrol.az saytındakı və onun feysbuk səhifəsindəki məlumatlar daim yenilənir.
2015-ci il mayın 31-dən etibarən İSİM tərəfindən **“HƏR GÜNÜN TÜTÜNSÜZ OLSUN!”** adlı aksiyaya start verilib. İlkin mərhələdə aksiya yalnız Azərbaycan və ingilis dilində olan www.nosmoke.az internet səhfəsində təşkil olunmuşdu və həm yerli vətəndaşların, həm də əcnəbilərin aksiyaya qoşulmasına imkan yaradılmışdı.




Yüzlərlə insan **“Mən siqaret çəkmirəm! Sən də çəkmə!”** adlı selfi generatorundan istifadə etməklə aksiyaya qoşulur, selfi fotoşəkillərini **#mensiqaretcekmirem haştaqı ilə** üzv olduğu sosial şəbəkələrdə paylaşır. Aksiya iştirakçılarının fotoşəkilləri İSİM-in aksiya ilə bağlı facebook səhifəsində və aksiya saytının qalereyasında yerləşdirilir.

Aksiyanın miqyasını genişləndirmək və iştirakçıların aksiyaya qoşulmasını asanlaşdırmaq üçün **2018-ci ildə İSİM tərəfindən “NoSmoke Selfie”, həmçinin ÜST-nin Azərbaycan üzrə ölkə ofisinin dəstəyi ilə “Tütündən imtina et” mobil əlavələri hazırlandı.**





## ŞƏHLA İSMAYILOVA

*Tibbi keyfiyyət standartları şöbəsinin müdiri*

> *"Metodik vəsaitlər səhiyyə və sağlamlıqla bağlı fəaliyyət sahələrində xidmətlərin, tədqiqatların keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır"*

## METODİK VƏSAİTLƏR VƏ TÖVSİYƏLƏR

Hesabat ili ərzində İSİM-də 21 metodiki vəsait işlənib hazırlanaraq Elmi-Tibbi Şuraya təqdim olunub. Bu vəsaitlərdən 10-u 2018-ci ildə Elmi-Tibbi Şura tərəfindən təsdiq edilib:

- Tütündən imtinaya dair tibbi-konsultativ xidmətlər (metodik tövsiyə)
- Eşitmə problemi olan uşaqların erkən aşkarlanması üzrə metodik vəsait
- Yenidoğulmuşların reanimasiyası. Dərs vəsaiti, 7-ci nəşr
- Tənəffüs pozuntuları olan yenidoğulmuşlara ilkin reanimasiya yardımın göstərilməsi üzrə metodik tövsiyə
- Qeyri-infeksion xəstəliklərin profilaktikası üzrə rəhbərlik
- Allergik rinitin diaqnostika və müalicəsi üzrə metodik vəsait
- Qeyri-infeksion xəstəliklərin profilaktikası (rəhbərlik)
- Yetkinlik yaşına çatmış şəxslər arasında profilaktik tibbi müayinələrin keçirilməsi (metodik vəsait)
- Ümumtəhsil məktəblərin ümumi orta təhsil səviyyəsində reproduktiv sağlamlığın tədrisi üzrə metodik tövsiyə
- Yetkinlik yaşına çatmamış somatik profilli xəstələrin sanator müalicəsinə göndəriş və əks-göndərişlər (metodik tövsiyələr)









## İNARA MAKAYEVA

*Monitorinq və təhlil şöbəsinin müdir müavini*



> “ *İSİM keyfiyyətli monitorinq və təhlil aparılması üçün məlumatın toplanılması metodlarının yaradılmasında yaxından iştirak edir”.*

# İSİM-DƏ APARILAN MONİTORİNQ VƏ TƏHLİL

Hesabat ili İSİM-də aparılan monitorinq və təhlil fəaliyyəti iki başlıca sahəni özündə əks etdirib:

I. Səhiyyə Nazirliyinin məlumat elektron bazasına daxil edilən AZS-066 nömrəli formaların (stasionardan çıxan şəxsin tibbi kartı) əsasında tibb müəssisələrinin fəaliyyətinin təhlilinin aparılması və hesabatların hazırlanması;

II.Uşaqların icbari dispanserizasiyasının gedişi barədə məlumatların təhlili və hesabatların hazırlanması.

Birinci fəaliyyət tibb müəssisələrinin fəaliyyətinə dair ən vacib göstəricilər əsasında rüblük analitik hesabatların hazırlamasına əsaslanır. İSİM-də, AZS-066 elektron məlumat bazasında 2018-cı ilin sonuna ümumilikdə 360 stasionardan daxil olan informasiya yer alıb. Bazaya 132 min 749 xəstə haqqında məlumat əlavə edilib. Elektron baza məlumatları əsasında 2018-cı ilin 4 rübü ərzində xəstəxanaların fəaliyyətinin müxtəlif aspektlərinin təhlili aparılıb və yekun hesabatlar hazırlanıb; hesabatın nəticələrini nəzərə alaraq praktiki tövsiyələr verilib.

## HESABAT ZAMANI QEYDƏ ALINAN BİR SIRA MƏQAMLAR

1. ***Kişilərlə müqayisədə qadınlar arasında olan cərrahi müdaxilələrin sayı 2.1 dəfə daha çox qeydə alınıb.***
2. ***Həzm sisteminin xəstəlikləri (29.3%), gözün xəstəlikləri (13.4%), sidik-cinsiyyət sisteminin xəstəlikləri (13.2%), tənəffüs orqanlarının xəstəlikləri (13.1%) və yeni törəmələr (11.1%) sinifləri üzrə cərrahi əməliyyatlar.***

### Daha çox qeydə alınan cərrahi əməliyyatlar

- **MRX** — 38%
- **Bakı şəhəri xəstəxanaları** — 24%
- **Bazaya daxil olan özəl klinikalar** — 19%
- **Doğum evləri** — 16%

Uşaqların icbari dispanserizasiyası zamanı əldə edilmiş nəticələr





**LAURA QULİYEVA**

*Səhiyyə kommunikasiyası və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*

> *"İctimai səhiyyənin əsas vəzifələrindən biri əhali arasında geniş tibbi maarifləndirmə fəaliyyətinin həyata keçirilməsidir".*

## MAARİFLƏNDİRMƏ, TƏBLİĞAT VƏ TƏŞVİQAT İŞLƏRİ

İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən müntəzəm olaraq müxtəlif maarifləndirici çap materialları (plakat, buklet, vərəqə və s.) hazırlanaraq çap edilir, bu istiqamətdə sosial çarxlar çəkilir, sosial şəbəkələrdə daim fəal təbliğat aparılır. Bu baxımdan, 2018-ci ildə İSİM tərəfindən 68 maarifləndirici çap materialı hazırlanaraq çap olunub, sağlam həyat tərzinin təbliği, ana südünün əhəmiyyəti, uşağın erkən inkişafı ilə bağlı 5 sosial çarx və 1 mobil əlavə hazırlanıb.

**Hesabat ilində İSİM-in fəaliyyəti ilə bağlı KİV-də 2 000-dən çox material əksini tapıb, İSİM-in mütəxəssisləri tərəfindən televiziya kanallarına və radio dalğalarına 100-dən çox müsahibə, müxtəlif saytlara və qəzetlərə isə 80-dən çox açıqlama verilib və sorğular cavablandırılıb.**

"Anaların ictimai yerlərdə ana südü ilə qidalandırma imkanına dəstək olaq!"

"Gəlin həyatımızı sağlam yaşayaq!"

"Körpənizi 6 ayına qədər yalnız ana südü ilə qidalandırın!"

"Tütündən imtina et!"









2018-ci il ərzində 103 xəbər hazırlanaraq www.isim.az saytına yerləşdirilib və xəbərlər müvafiq olaraq ingilis və rus dillərinə tərcümə edilib.

Avropa İctimai Səhiyyə Assosiasiyasının 2018-ci il aylar üzrə hazırlanmış informasiya bülleteni, o cümlədən illik hesabatı Assosiasiyanın www.isim.az saytında, banner səhifəsinə yerləşdirilib (<https://www.isim.az/az/pages/34-EUPHA> ).

Saytın "Resurslar" bölməsində İSİM-də hazırlanaraq çap olunan müxtəlif maarifləndirici materialların e-variantı daxil edilib.

Saytın "Biz mediada", "Foto qalereya" bölməsinə müvafiq məlumatlar, şəkillər əlavə olunub. "Video qalereya" bölməsinə 8 video-material yerləşdirilib və rəsmi "Youtube" səhifəsinə yönləndirilib.

















İSİM-in sosial şəbəkələrdəki fəaliyyətinin tənzimlənməsi və effektivliyinin artırılması üçün "Facebook", "Twitter", "İnstagram" sosial şəbəkəsi üzrə təlimatlar hazırlanıb, istifadəçilərə müxtəlif maarifləndirici materiallar təqdim edilib.

İSİM-in feysbuk səhifəsində 3061 izləyici sayına 2018-ci il ərzində 1131 şəxs əlavə olunub və beləliklə, səhifənin daimi izləyicilərinin sayı ümumilikdə 4198 nəfəri keçib.

**90** face-posterlər

**75** xəbər sayı

**631** səhifədə bəyənmə sayı



## ŞƏHLA MİRZƏZADƏ

*Səhiyyə siyasəti və islahatlar şöbəsinin müdiri*

*“Əhalinin sağlamlığının qorunması sahəsində profilaktik tədbirlərin həyata keçirilməsi insanlarda məsuliyyət hissinin artmasına, biliklərin və davranışların təkmilləşdirilməsinə səbəb olur”.*

## PROFİLAKTİK TƏDBİRLƏR

İSİM tərəfindən 2018-ci il ərzində təhsil müəssisələrində infeksion və qeyri-infeksion xəstəliklərin risk faktorları ilə mübarizə, eləcə də sağlam həyat tərzinin təbliği istiqamətində 51 tədbir keçirilib və iştirakçılara mövzuya dair maarifləndirici materiallar paylanılıb.

- **12 tədbir** — Tütün məmulatlarından istifadənin zərərləri
- **14 tədbir** — Narkomaniya və narkotik maddələrin təhlükələri
- **5 tədbir** — Sağlam qidalanmanın insan orqanizminə müsbət təsirləri
- **11 tədbir** — Reproduktiv sağlamlıq və erkən nikahların fəsadları
- **7 tədbir** — Fiziki aktivliyin əhəmiyyəti
- **8 tədbir** — Təmizlik və gigiyenanın insan sağlamlığı üçün əhəmiyyəti
- **7 tədbir** — Ekologiya və sağlamlıq mövzusunda



Hesabat ilində İSİM tərəfindən müxtəlif yerli təşkilat və qurumlarla əməkdaşlıq çərçivəsində bir sıra irimiqyaslı tədbirlər keçirilib.

- Əhalini tibbi müayinələrdən keçməyə təşviq etmək, onları profilaktik tibbi baxışların vacibliyi və əhəmiyyəti barədə ətraflı məlumatlandırmaq məqsədilə 10 tədbir
- 31 may – Ümumdünya Tütünsüz Günü"nün tarixinə və tütünçəkmənin fəsadlarına ictimaiyyətin diqqətinin yönəldilməsi məqsədilə KİV nümayəndələrinin iştirakı ilə dəyirmi masa
- Milli Məclis üzvlərinin iştirakı, "Lider qadınlar" İctimai Birliyi, "Birgə və Sağlam" İctimai Birliyinin dəstəyi ilə "Autizm spektrum pozuntusu" mövzusunda KİV nümayəndələrinin iştirakı ilə dəyirmi masa
- UNICEF ilə əməkdaşlıq çərçivəsində Azərbaycanda 1-7 oktyabr "Ana südü ilə qidalandırma" həftəsinin başlaması ilə əlaqədar tədbirlər kompleksi





- "Sağlamlığı təşviq edən məktəblər" layihəsi çərçivəsində tədbirlər kompleksi
- Respublika Endokrinologiya Mərkəzi, Azərbaycan Diabet Liqasının birgə təşkilatçılığı, "Ümidli gələcək" İctimai Birliyinin dəstəyi ilə Ümumdünya Diabet Gününə həsr olunmuş tədbir
- Endokrinologiya, Diabetologiya və Terapevtik Təlimat Assosiasiyası, Azərbaycan Endokrinoloqlar Elmi Cəmiyyəti, Respublika Endokrinoloji Mərkəzi ilə əməkdaşlıq çərçivəsində təşkil edilən 1-ci Azərbaycan Diabet Konqresi
- H.Əliyev Fondu ilə əməkdaşlıq çərçivəsində "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Ümumdünya Diabet Günü ilə əlaqədar Tovuz, Qazax, Masallı və Lənkəran rayonlarının mərkəzi xəstəxanalarının poliklinikalarında "Açıq qapı günü" və s.









**LÜTFİ QAFAROV**

*İlkin səhiyyənin təşkili şöbəsinin müdiri*

*“Xəstəliklər barədə məlumat səviyyəsini müəyyənləşdirmək məqsədi ilə əhali arasında sorğuların aparılması və qiymətləndirilməsi İSİM-in əsas fəaliyyət istiqamətlərindən biridir”.*

## ƏHALİ ARASINDA SORĞULARIN APARILMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

İSİM tərəfindən Hesabat ilində ilkin səhiyyə xidmətləri göstərən müəssisələrin işçiləri üçün təlimlər təşkil edilib, ilkin səhiyyə səviyyəsində sağlamlıq göstəricilərinin qiymətləndirilməsi məqsədi ilə vaxtaşırı məlumatların toplanması və təhlili həyata keçirilib.

“2016-2020-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı”na müvafiq olaraq Səhiyyə Nazirliyinin dəstəyi ilə İSİM tərəfindən 2018-ci ildə “Əhali qruplarının peyvəndlərlə əhatə səviyyəsini müəyyənləşdirmək məqsədilə anket-sorğu keçirilib.

Sorğu Bakı şəhəri (Xəzər, Yasamal, Suraxanı və Nizami rayonları), Sumqayıt, Ağstafa, Göygöl , Qəbələ, Masallı, Quba, Kürdəmir, Bərdə, Şirvan və Laçın rayonlarında, 1-6 yaş qrupunda təqribən 700 nəfər uşaqlar arasında aparılıb. Sorğunun nəticələri əsasında yekun hesabat hazırlanıb.



Hesabat ilində İSİM tərəfindən palliativ qayğı sisteminin milli model və konsepsiyası hazırlanaraq Səhiyyə Nazirliyinə təqdim edilib.

İSİM tərəfindən reproduktiv sağlamlıq, ana, yenidoğulmuş, uşaq və yeniyetmələrin sağlamlığı sahəsində siyasətə dair Ümumdünya Səhiyyə Təşkilatının Avropa regionu üzrə 2018-ci il sorğusu həyata keçirilib.

## SEVDA MƏMMƏDOVA

*Təlim-resurs şöbəsinin müdir əvəzi*



*“İSİM səhiyyə mütəxəssislərinin peşəkar təkmilləşdirilməsi istiqamətində müntəzəm olaraq təlimlər, seminar və konfranslar təşkil edir”.*

## TƏLİMLƏR, SEMİNARLAR, KONFRANSLAR

Hesabat ilində ölkənin müxtəlif səhiyyə qurumlarında çalışan səhiyyə işçilərinin iştirakı ilə üçü dəyirmi masa olmaqla,İSİM tərəfindən müxtəlif mövzularda təlimlər, konfranslar təşkil edilib.

“Autizm spektrum pozuntusu: Diaqnoz, qiymətləndirmə və müalicə” mövzusunda seminar

Ölkənin şəhər və rayonlarının doğuşayardım müəssisələrində çalışan tibb mütəxəssisləri üçün “Yenidoğulmuşların reanimasiyası” mövzusunda **4 təlim kursu**

“Klinik qərara dəstək təlim təşəbbüsü” layihəsinin nailiyyətlərinə həsr olunmuş konfrans

“Səhiyyə sistemində islahatların idarə edilməsi” üzrə təlim

“İlk tibbi yardım” təlimi

“Uşaqların sağlamlığı sahəsində inkişafın ölçülməsi” mövzusunda seminar

24 Mərkəzi Rayon Xəstəxanası üzrə tibb mütəxəssisləri, Fövqəladə Hallar Nazirliyinin və Daxili İşlər Nazirliyinin tibb idarələrinin nümayəndələrinin iştirakı ilə “Humanitar sahələrdə reproduktiv sağlamlıq üzrə Minimal İlkin Xidmətlər Paketinin əlaqələndirilməsi və həyata keçirilməsi üçün milli potensialın artırılması” layihəsi çərçivəsində **2 təlim**

“Diabetin müalicəsində müasir yanaşmalar” mövzusu üzrə təlim

Davamlı tibbi təhsilin tətbiqi ilə bağlı Bakı Şəhər Baş Səhiyyə İdarəsinin, eləcə də digər qurumların tabeliyində olan səhiyyə müəssisələrinin rəhbər işçiləri üçün **29** maarifləndirici toplantı

“Hemofiliyada multidissiplinar yanaşma” mövzusunda **2 elmi-praktik seminar**




Davamlı tibbi təhsilin tətbiqi ilə bağlı toplantı - 07.11.2018



Peşəkar birlik və assosiasiyaların tibb elmi və ölkə səhiyyəsinin inkişafına cəlb edilməsi üzrə konfrans



**SAMİR MEHDİYEV**

*Telekommunikasiya şöbəsinin müdiri*

> *“İSİM əhali arasında məlumatlılğın artırılması üçün müasir texnologiyalardan uğurla istifadə etməkdədir”.*

## MÜASİR TEXNOLOGİYALARIN TƏTBİQİ

Tibbi maarifləndirilmənin və əhali arasında məlumatlılğın artırılması məqsədi ilə İSİM tərəfindən bir neçə sayt yaradılaraq istifayəyə verilib.

- www.isim.az
- saglamliq.isim.az
- e-telim.isim.az
- nosmoke.az/generator/
- tobaccocontrol.az
- play.google-NoSmoke Selfie
















**Hesabat ili ərzində İSİM-in saytlarına ümumi olaraq 100 min nəfərdən çox baxış qeydə alınıb. Təqdim olunan videomateriallara ümumi baxış sayı isə 10 mindən çox olub.**

2018-ci ildə İSİM-in elektron poçtunun və veb səhifələrinn fəaliyyəti, o cümlədən İSİM əməkdaşlarının kompüter sisteminə tam giriş imkanı təmin edilib. Eyni zamanda, serverlərin fəaliyyətinin tənzimlənməsi və onun fasiləsiz işi təşkil olunub, internet informasiya ehtiyatlarının sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə istifadəsi üçün tez və asan əldə edilən, optimal şərait yaradılıb.

# ANNUAL REPORT 2018

**21** State programs, strategies and actions according to the plans of the Cabinet of Minister

**122** *lectures and events in schools, universities, military units, enterprises and medical institutions*

**14** analytical reports on the results of surveys, studies, quarterly and annual databases of MOH

**100** interview and reportages on TV and radio

**50** partners from state institutions, local and international NGOs, professional medical societies, etc..

**12** international conferences, symposiums and trainings with PHRC experts' participation

**21** training and seminars (including 15 for physicians)

**103** news published on www.isim.az



**1131** New Facebook subscribers (total more than 4000)

**68** published materials - booklets, posters, flyers, books...

**140 000** printed and distributed copies of materials

**5000** Visits on PHRS internet sites

**2** Mobile applications on Android and IOS

**5** Video and animations

**21** clinical standard regulations, guidelines and other MOH documents

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

# İSİM 2019

## *İSİM-in 2019-cu ildə yenidən qurulması həyata keçirildi*

Bir neçə şöbə ləğv edildi və tibb işçilərinin sertifikasiyası, tibb müəssisələrinin və tibbi elmi-praktik iclasların akkreditasiyası şöbələri əlavə olundu. Eyni zamanda, yeni simulyasiya bölməsi yaradıldı.

**2020-ci ildə** Azərbaycanda məcburi tibbi sığortaya tam keçid gözlənilir. Səhiyyə Nazirliyinin tərkib hissəsi kimi İSİM öz növbəsində İcbari Tibbi Sığorta Agentliyinə köməklik göstərəcəkdir.

Tibb müəssisələrinin akkreditasiyaya daxil edilməsi xəstələrə göstərilən xidmətin keyfiyyətinin artırılmasınına, tədricən onların dünya standartları səviyyəsinə çatıdırılmasına, xəstələr və tibb işçiləri arasında qarşılıqlı etibarın qazanılmasına zəmin yaradacaq.

2019-cu il üçün nəzərdə tutulan səhiyyə kommunikasiyası planının hazırlanması çərçivəsində sağlam həyat tərzinin təbliği və təşviqinin aparılmasının daha səmərəli və yaradıcı üsulları öyrəniləcək. Sosial şəbəkələrdə təbliğat işinin genişləndirilməsi, smartfon və internet portallarında müvafiq əlavələrin yaradılması nəzərdə tutulur.

Biz həmçinin, normativ sənədlərin, metodik tövsiyələrin yazılması və təkmilləşdirilməsi üzərində işləyəcək, müvafiq mühazirə, seminar, konfranslar təşkil edəcək, Dövlət Proqramları tərəfindən qoyulmuş vəzifələr çərçivəsində tədbirlər keçirməyi davam etdirəcəyik.

Respublikada palliativ yardımın göstərilməsi üzrə pilot layihənin keçirilməsi planlaşdırılır. ÜST-nin beynəlxalq təşkilatları, UNİCEF, digər beynəlxalq və qeyri-hökumət təşkilatları ilə birgə layihələrin həyata keçirilməsi davam etdiriləcəkdir.

**2019-cu ildə Mərkəzimiz BMT-nin 2015-ci ildə təsdiq etdiyi inkişafın dayanıqlı məqsədlərinin həyata keçirilməsi üzərində səylə çalışacaq.**

Mərkəzimiz "Azərbaycanda Yol xəritəsi" çərçivəsində informasiya texnologiyalarının inkişafı üzrə Səhiyyə Nazirliyinin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi ilə birgə respublikada səhiyyənin elektron standartlarının yaradılması və tətbiqi üzərində işi davam etdirəcəkdir.

## Səhiyyə Nazirliyi
## İctimai Səhiyyə və İslahatlar Mərkəzi
## bütün təşkilatları
## əməkdaşlığa çağırır


Bakı, AZ1122, Zərdabi küç., 96

431 12 72   430 52 85   office@isim.az

www.isim.az